Kərimov Ş.M., Ağayeva Ə.İ.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2025.81.73-82
UOT: 343.1

## Ədalət mühakiməsində süni intellekt və hakimin daxili inamı arasındakı balans

**Xülasə:** Məqalədə qeyd olunur ki, süni intellektin həyatımıza sürətlə inteqrasiya olunduğu bir dövrdə ədliyyəsistemində çalışan əməkdaşlar üçün hələ də açıq qalan əsas suallardan biri budur: gələcəkdə süni intellekt hakimləri əvəz edə biləcəkmi? Tədqiqat işi çərçivəsində süni intellekt və hakimlərin qərarvermə prosesləri hüququn aliliyi, prosessual ədalət və qərarların legitimliyi prizmasından müqayisə edilir, hər birinin üstün və zəif tərəfləri göstərilir. Daha sonra qərarın süni intellekt tərəfindən yoxsa hakimin daxili inamına əsaslanaraq qəbul edilməsinin hüquqi və praktiki nəticələri təhlil olunur. O cümlədən, artıq bəzi ölkələrin məhkəmə praktikasında süni intellektdən hansı səviyyədə istifadə edildiyi də araşdırılır və müvafiq nümunələr təqdim edilir.

Yekun olaraq, məhkəmə sistemilə süni intellektin əməkdaşlığının həm vaxta qənaət baxımından, həm də daha dəqiq və ədalətli qərarların qəbulu üçün tamamlayıcı bir model kimi əhəmiyyət kəsb etdiyi vurğulanır.

**Açar sözlər:** süni intellekt, hakim, daxili inam, “robot hakim”, qərarvermə, məhkəmə, texnologiya, ədalət.

Karimov Sh.M., Agayeva E.I.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2025.81.73-82
UDC: 343.1

## The balance between artificial intelligence and judge's inner conviction in judicial reasoning

**Abstract:** In a period when artificial intelligence is being rapidly integrated into our lives, one of the main questions that remains open for employees working in the judiciary is: in the future, could artificial intelligence replace judges? Within the framework of the research, the decision-making processes of artificial intelligence and judges are compared from the perspective of the rule of law, procedural justice, and the legitimacy of decisions, highlighting the strengths and weaknesses of each. Subsequently, the legal and practical consequences of a decision being made by artificial intelligence versus being based on a judge's internal conviction are analyzed. Additionally, the study examines the extent to which artificial intelligence is already being used in the court practices of some countries and provides relevant examples. In conclusion, it is

♦ **Kərimov Şöhlət Müzəffər oğlu** - MAA-nın Hüquq kafedrasının dosenti, h.ü.f.d. (Azərbaycan). E-mail: shohlet.kerimov@gmail.com
**Ağayeva Əsmər İnqilab qızı** - MAA-nın Hüquq kafedrasının magistrı (Azərbaycan). E-mail: ebaxishli@gmail.com
♦ **Karimov Shohlat Muzaffar** - Ph.D. in Law, Associate Professor of the Law Department of National Aviation Academy (Azerbaijan). E-mail: shohlet.kerimov@gmail.com
**Agayeva Esmar Ingilab** - Master's student of the Law Department of National Aviation Academy (Azerbaijan). E-mail: ebaxishli@gmail.com\

emphasized that the collaboration between the judicial system and artificial intelligence is significant both in terms of saving time and as a complementary model for making more accurate and just decisions.

**Keywords:** artificial intelligence, judge, inner conviction, 'robot judge', decision-making, court, technology, justice

Süni intellekt (Sİ) texnologiyalarının inkişafı hüquq sistemlərinə də təsir göstərərək məhkəmə fəaliyyətində yeni imkanlar və eyni zamanda ciddi hüquqi və etik çağırışlar yaradıb. Hüquq proseslərində süni intellektin tətbiqi qərarların daha sürətli, sistemli və səmərəli qəbuluna şərait yaradır. Bununla belə, məhkəmə hakimiyyətinin əsas prinsipləri qanun qarşısında bərabərlik, insan hüquqlarının qorunması və məhkəmə müstəqilliyi süni intellektin geniş istifadəsi fonunda risk altına düşə bilər [1, s. 1].

Süni intellektdən hüquqi qərarvermədə istifadə etmək bir sıra üstünlüklər versə də, onun müstəqil qərarverici subyektə çevrilməsi ədalət mühakiməsinin təməl mahiyyətini dəyişə bilər. Hakimin qərarvermə prosesi yalnız normativ biliklərlə deyil, həm də daxili inam, təcrübə, empatiya və etik məsuliyyət kimi insanixüsusiyyətlərə əsaslanır. Bu baxımdan obyektiv tədqiqat sualı yaranır: süni intellekt hüquqi qərarvermədə hakimin daxili inamını əvəz edə bilərmi, yoxsa yalnız köməkçi alət kimi fəaliyyət göstərməlidir?

Aparılmış tədqiqatın məqsədi süni intellektin məhkəmə qərarverməsində rolu və məhdudiyyətlərini təhlil etmək, onun tətbiqinin hüquqi, etik və psixoloji sərhədlərini müəyyənləşdirməkdir. Əsas məqam ondan ibarətdir ki, süni intellekt hakimlərin fəaliyyətini dəstəkləməli, lakin onları əvəz etməməlidir. Başqa sözlə, Sİ ədalət mühakiməsində qərarvermə funksiyasını deyil, yalnız informasiyanın emalı və təhlilini optimallaşdıran yardımçı mexanizm rolunu oynamalıdır.

Tədqiqat normativ-hüquqi və müqayisəli analiz metodlarına əsaslanır. Bununla yanaşı, tədqiqatın məqsədlərinə uyğun olaraq psixoloji amillərin hüquqi qərarverməyə təsirinin qiymətləndirilməsi üçün psixologiya və hüquq sahələrini inteqrativ şəkildə birləşdirən fənlərarası (interdisiplinar) metodoloji yanaşmadan da istifadə edilmişdir. Tədqiqat çərçivəsində süni intellektin məhkəmə qərarverməsində rolu və onun hüquqi-etik sərhədləri milli və beynəlxalq hüquq normaları kontekstində təhlil edilmişdir. Təhlil zamanı Azərbaycan Respublikasının Konstitusiyası, Avropa Etik Xartiyası, UNESCO hesabatları və müxtəlif ölkələrin təcrübələri (Estoniya, Çin, ABŞ) müqayisəli şəkildə öyrənilmişdir. Metodoloji yanaşmanın məqsədi süni intellektin qərarvermə prosesində hakimin daxili inamını əvəz edib-etməyəcəyini müəyyənləşdirməkdir.

Süni intellektin məhkəmə qərarlarına təsirindən danışarkən qeyd etməliyik ki, bir çox elmi mənbələrdə süni intellekt, adətən, insan zəkasına sahib robotlar kimi təsvir edilir [2, s. 346-354]. Təcrübə və mülahizələrdən asılı olan bəzi xidmət sahələri istisna olmaqla, hər şey texnologiya ilə əvəz edilə bilər. Süni intellekt hüquq sahəsinə də yenilik gətirib ki, bu da əvvəlcədən öyrəşilən adi prosesləri əsaslı şəkildə dəyişib. O, ədaləti tez və ağıllı şəkildə təmin etmək üçün güclü vasitəyə çevrilir. Artıq vəkillər, iddiaçılar, məhkəmə işçiləri və hakimlər öz işlərini sadələşdirmək və daha uğurlu olmaq üçün süni intellektdən istifadə edirlər. Məhkəmə prosedurları bir qayda olaraq çox vaxt aparan, yorucu və çətin mərhələlər hesab edilir. Elə bu zaman süni intellekt hüquqşünaslara təkrarlanan, çox vaxt aparan işlərdə kömək edir ki, bu da onların vaxtlarına qənaət etmələrinə, daha dəqiq və tez nəticəyə gəlmələrinə səbəb olur.

Süni intellektin müsbət tərəfləri ilə yanaşı mənfi tərəflərini də qeyd etmək mümkündür – mübahisələri həll etmək, məhkəmə qərarlarının qəbulu prosesində tətbiq etmək üçün süni intellektə güvənmək ağır nəticələrə səbəb ola bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin birinci bəndinə əsasən, Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər [3]. Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin üçüncü bəndinə görə isə hər hansı bir şəxs tərəfindən və hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhkəmə icraatına məhdudiyyət qoyulması, qanuna zidd təsir və müdaxilə edilməsi yolverilməzdir [3].

O cümlədən, hakim vasitəsilə həll edilməsi çətin olan davranış rejimləri, kateqoriyaları vardır ki, süni intellekt bu zaman yetərsiz hesab olunur. Bunlara subyektiv və obyektiv hallar, əmlak, dəyərlər, adətlər, emosiyalar və s. aid etmək olar.

Hal-hazırda cəmiyyəti, xüsusilə hüquqşünasları maraqlandıran bir sual var: "Gələcəkdə hakimlər robotlarla əvəz ediləcəkmi?" Əlbəttə ki, süni intellektin gördüyü işlər hakimlərin işlərini asanlaşdıracaq, vaxt itkisini aradan qaldıracaq, məhsuldarlıq artacaq. Nəticəyönümlü olması səbəbindən proqnozlaşdırılan işlərin təhqiqatı daha dəqiq nəticələr verəcək. Hətta süni intellekt artıq hakimlərin bəzi qərar qəbul etmə alqoritmlərini də mənimsəmişdir, buna görə də "robot hakim" anlayışı artıq o qədər də qəribə səslənmir [4]. Bununla belə insanların idrak qabiliyyətlərindən imtina edib maşınlara tabe olması əsas problemlərdən biri hesab edilə bilər [5]. Həmçinin, süni intellekt gəldiyi nəticəni aydınlaşdırmaq iqtidarında deyil, çünki proqram təminatı onun funksionallığı haqqında ətraflı məlumat vermir və şəffaf deyil. Bu halda, hakimlər nəticənin necə əldə olunduğunu bilməyəcək. Həmçinin süni intellektdən ən yaxşı şəkildə necə istifadə ediləcəyi ilə bağlı hakimlər geniş anlayışa malik deyil. Məhkəmə qərarlarının qəbulunda hakimlər müxtəlif proqram təminatlarından istifadə edəcəyi üçün bu da əlavə qarışıqlığa, prosesin uzanmasına səbəb ola bilər. O cümlədən, süni intellekt mülahizələri qiymətləndirmək iqtidarında olmadığından bir çox hallarda ədalətsizlik yaranacaq. Əgər yeni qəbul edilmiş qərarlar mütəmadi olaraq yenilənməzsə, süni intellekt qüvvəsini itirmiş qərarı tətbiq edə bilər. Belə məlumatlarda keçmişdəki ayrı-seçkilik praktikaları varsa,məsələn, müsəlmanlara qarşı sərt cəzalar, süni intellekt bu qərəzli halları təkrarlaya və gücləndirə bilər [6, s. 7]. Səhv qərar verildiyi təqdirdə məsuliyyətin kimin daşıyacağı da sual doğuran məqamlardan biridir.

Azərbaycan Respublikası Konstitusiyasının 129-cu maddəsinin birinci bəndinə əsasən məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır . Yanlış qərar dövlətin nüfuzuna xələl gətirə, eyni zamanda cəmiyyətin dövlətə, məhkəmənin ədalətinə olan güvənini, inamını sarsıda bilər. Həddindən artıq süni intellektdən istifadə ondan asılılığa səbəb olur ki, bu da idrakın inkişafına maneə yaradır. Süni intellektin bütün ölkə ərazisində istifadəsi üçün müəyyən zəruri ehtiyaclar mövcuddur. Məsələn, Hindistanda hakimlərin iş yükünü azaltmaq məqsədilə SUPACE adlanan alətdən istifadə edilir. Ancaq Hindistanın kənd yerlərində bir çox aşağı instansiyalı məhkəmələr etibarlı internet bağlantısı və ya rəqəmsallaşdırılmış qeydlərə malik deyil, bu boşluqlar aradan qaldırılmadığı təqdirdə süni intellektin tətbiqi şəhər-kənd fərqini genişləndirəcək [7].

Qərarlar süni intellekt tərəfindən qəbul edildiyi halda şəxsi məlumatların təhlükəsizliyi ilə bağlı problemlər də süni intellektin qərar qəbul etməsi ilə bağlı növbəti problemdir. Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin 5-ci bənsinə əsasən bütün məhkəmələrdə işlərin icraatı açıq aparılır. İşə qapalı iclasda baxılmasına yalnız o halda icazə verilir ki, məhkəmə açıq icraatın dövlət, peşə və kommersiya sirrinin açılmasına səbəb olacağını güman edir, ya da

vətəndaşların şəxsi və ya ailə həyatının məxfiliyini qorumaq zərurətinin mövcudluğunu müəyyən edir. Bu zaman sual yaranır ki, süni intellekt məxfiliyin qorunacağına necə təminat verir? İctamiyyət həmin məlumatların sonrakı məqsədlər üçün istifadə olunmayacağına əmindirmi? Əks halda bu, insanların hakimlərin, yəni, süni intellektin ədalətli və qərəzsiz qərar qəbul etməsinə olan inancını məhv etmiş olacaq. Buna görə də bəzi tədqiqatçılar süni intellektin etibarlı, humanist, məsuliyyətli, sosial, etik olması üçün zəmanətlərin lazım olduğunu müdafiə edirlər.

Ancaq süni intellektin hüquqi qərarlar qəbul etməsi məhkəmə hakimiyyətinin müstəqilliyi baxımından şübhə doğura bilər. Aparılmış tədqiqatın məqsədi odur ki, "süni intellekt hüquqi qərarvermədə hakimin daxili inamını əvəz edə bilərmi yoxsa insan faktoru hələ də əvəzolunmazdır?" sualına cavab tapsın.Təbii ki, süni intellekt məlumatları təhlil etmək, nümunələri tanımaq, resursları səmərəli şəkildə bölüşdürmək bacarığı ilə səmərəliliyi və dəqiqliyi artıra bilər. Lakin bir çoxprosedurlar vardır ki, onların icrası yanlız insan nəzarəti və müdaxiləsi tələb edir. İnsanla süni intellekt arasındakı əsas fərq ondadır ki, o, insan hislərinə, emosiyalarına sahib deyil. Mühakimə etmək, ədalətli qərar vermək, halları müəyyənləşdirmək, sübutların qiymətləndirilməsi insan zəkası tələb edir. Süni intellektdən müəyyən işlərin yerinə yetirilməsində istifadə edilə bilər, məsələn, ilkin təhlillərin aparılması, alternativ həll yollarının müəyyənləşdirilməsi, nəticənin proqnozlaşdırılması, vaxta qənaət edilməsi, xərclərin minimuma endirilməsi, müqavilələrin yazılması və s. Ancaq o, insan mülahizəsini, empatiyasını, düşüncəsini əvəz edə bilməz. Süni intellektin istifadəsi gücü insanın əllərindən almaq deyil, əksinə, ədaləti vicdanlı fəaliyyətin mərkəzinə qoyaraq insan gücünü istifadə etməyin yeni bir yoludur [8, s. 19-22].

Artıq bəzi ölkələrdə süni intellekt hüquq sahəsində tətbiq olunaraq səmərəliliyi və dəqiqliyi artırmaq məqsədilə istifadə edilir. Məsələn, 2019-cu ildə Estoniya Ədliyyə Nazirliyi rəsmi olaraq 7,000 avrodan az olan kiçik iddialar üzrə mübahisələrə rəhbərlik edəcək "robot hakim" dizayn edilməsi ilə bağlı layihə elan etmişdir ki, bu yolla yığılan məhkəmə işləri daha az vaxt ərzində aradan qaldırılacaq, lakin "robot hakim"-in verdiyi qərardan daha sonra apellyasiya şikayəti verilə bilər və ona insan hakim baxa bilər [9]. Və ya 2020-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Elektron Məhkəmə" İnformasiya Sistemi haqqında Əsasnamədə təsdiq edilib ki, onun proqram təminatı süni intellektin məhkəmə fəaliyyətində istifadəsini özündə ehtiva edir [10]. "Elektron Məhkəmə" İnformasiya Sisteminin müsbət tərəfləri odur ki, işlərə 1 gün ərzində baxılır, məhkəmələrə inamın artması, icra prosesinin sürətlənməsi, xərclərə və vaxta qənaət edilməsi, apellyasiya şikayəti verilmiş məhkəmə qərarlarının 7%-ə yaxınının sistemdə qeydiyyata alınması və s.-dır [11].

ABŞ-da COMPAS aləti hakimlərə girov verib-verməmə qərarında risk qiymətləndirmələri təqdim etməklə kömək edir, lakin ona irqçiliyə meyllilik və şəffaf olmamaqda ittihamlar irəli sürülüb[12].Avropa İttifaqı təklif olunan Süni İntellekt Aktı (SİA) vasitəsilə şəffaflıq, ədalət və məsuliyyət kimi abstrakt normativ anlayışları əhatə edən vahid standartlar hazırlamağı hədəfləyir [13]. Yuxarıdakı nümunələrin ümumi xüsusiyyəti ondadır ki, onlar aydın strategiya və metodoloji baza olmadan baş verir, bu isə texnoloji inkişaf kontekstində qanunvericilik anlayışlarında müəyyən problemlər yaradır [14]. Çində "206 Sistemi" adlanan alət üzərindən süni intellekt cəza təyinini və şahid ifadələrindəki ziddiyyətləri proqnozlaşdırmaq üçün istifadə edilir, o, sübutların etibarlılığını yoxlayır, məhkəmə başlamazdan əvvəl prosedur səhvlərini qeyd edir, əvvəlki presedentlər və hüquqi qaydalar əsasında cəza təklifi verir [15].

2018-ci ildə Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası tərəfindən qəbul edilmiş Məhkəmə Sistemlərində və Onların Mühitində Süni İntellektin İstifadəsi üzrə Avropa Etik

Xartiyasında qeyd olunur ki, məhkəmə proseslərində süni intellektdən müxtəlif sahələrdə istifadə edilə bilər: mübahisələrin onlayn həlli, prosessual aktların hazırlanması, təhlil və proqnozlaşdırma, müqavilələrin təsnifatlaşdırılması və uyğun olmayan müddəaların müəyyən edilməsi, eləcə də "çatbotlar" vasitəsilə tərəflərin məlumatlandırılması [16].

Hakimin daxili inamı və insan faktorunun əvəzolunmazlığını xüsusilə qeyd etməliyik. Daxili inam nədir, bu ifadə nə vaxt meydana gəlib, o, necə formalaşır, təcrübə, təlim, subyektiv yoxsa obyektiv təsirlər daha çox təsir edir? İlk öncə daxili inamın tarixinə nəzər salaq. Orta əsrlərdə sübutlar nəzəriyyəsi adlanan bir nəzəriyyə mövcud idi. Bu nəzəriyyənin əsas mahiyyəti ondan ibarətdir ki, burada sübutlar qanundaəvvəlcədən müəyyənləşdirilmiş xarici əlamətlər əsasında qiymətləndirilirdi, ancaq Böyük Fransa Burjua İnqilabı dövründə 1791-ci ildə sübutların daxili inam əsasında qiymətləndirilməsi nəzəriyyəsi rəsmi olaraq hüquqda tətbiq edilməyə başlandı [17, s. 112-114].

Daxili inam bəzən dəlillərin qiymətləndirilməsi üsulu və prinsipi kimi, bəzən bu qiymətləndirmənin meyarı, bəzən də nəticəsi kimi qəbul edilir, ancaq daxili inam hakimin işdəki sübutları araşdırdıqdan sonra təcrübələri nəticəsində gəldiyi qənaətin düzgünlüyünə inamını ifadə edən hüquqi şüur kateqoriyası kimi başa düşülür [18, s. 10].

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 25.3cü maddəsinə görə Azərbaycan Respublikasının məhkəmələri ədalət mühakiməsini hakimlərin müstəqilliyinə və iradəsinə qanunsuz təsiri istisna edən şəraitdə həyata keçirirlər[3]. 145.2-ci maddəsinə əsasən təhqiqatçı, müstəntiq, prokuror, hakim qanunu və vicdanını rəhbər tutaraq sübutların məcmusunun hərtərəfli, tam və obyektiv baxılmasına əsaslanmaqla öz daxili inamına görə sübutları qiymətləndirirlər [3]. Bu məcəllənin 450.6.5-ci maddəsində isə deyilir ki, hakim cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinin və ya qərarlarının qanuni və əsaslı olub-olmaması barədə Azərbaycan Respublikasının cinayət və digər qanunlarının tələbləri və özünün daxili inamı əsasında qərar çıxarır [3]. Beləliklə, daxili inamın əhəmiyyətitəkrar olaraqön plana çıxır.

Qərar vermək hər nə qədər bütün insanların sahib olduğu xüsusi bir qabilliyyət olsa da, çətinlikləri, məsuliyyəti, nəticələri baxımından hakimlər üçün daha çox əhəmiyyət daşıyır. Yanlış qərarın qəbul edilməsi qanunun, təqsirləndirən şəxsin hüquqlarının pozulması ilə yanaşı, cəmiyyətdə də mənfi nəticələrə səbəb ola bilər. Ədalət nəinki həyata keçirilməlidir, həm də onun həyata keçirildiyi görülməlidir [19, s. 82].

Hakimlərin daxili inamının formalaşmasında psixologiyanın xüsusi əhəmiyyəti vardır. Məsələn, cinayətlər əksərən həyəcan, qorxu və s. kimi hislərin təsiri altında törədildiyi üçün eyni hisləri nə vaxtsa keçirmiş hakim qərarlarında daha az sərt olur, buna psixologiyada “empatiya” deyirlər, təqsirləndirilən şəxsin hərəkətləri, geyimi, əxlaqi məsələlərlə bağlı fikirləri, istifadə etdiyi söz, hətta bəzən səsi də hakimdə mənəvi ziddiyyətə səbəb ola bilər ki, bu da onunla bağlı qərarın daha sərt olmasına səbəb ola bilər, bu hadisə isə psixologiyada “antipatiya” adlanır [20, s. 185]. Bu kimi hislərin onda mövcud olduğunu anlayıb qəbul edən hakim öz üzərində edəcəyi təhlillərlə bu təsirlərdən xilas ola bilər [21, s. 273].

Hakimlərin daxili inam əsasında qərar qəbul etməsi heç də onların şəxsi fikir və istəkləri demək deyildir, əks halda bu qanunun pozulması deməkdir. Bu, hakimin əxlaqının yüksək və ya aşağı olması, iradəsinin güclü və ya zəif olması, bir sözlə, insanlığına bağlıdır[22, səh 107]. Müsbət keyfiyyətlərə sahib olmayan hakim (qanunu dərindən bilməyən, qarşısındakı ilə empatiya qurmaq bacarığından məhrum olan, əxlaqi keyfiyyətlərə sahib olmayan) öz şəxsi istəyinə uyğun olaraq

qərar qəbul edəcək, bu da qanunun hərfi mənada tətbiq edilməsi kimi görünüb, hakimin istədiyi yönə çəkməsi ilə nəticələnər [20, s. 184].

Eyni zamanda, hakim tərəfsiz olmalıdır, məsələn, təqsiri sübut edilənə qədər hər həs təqsirsizlik prezumpsiyasından yararlanır. Tərəfsizlik emosiyalardan, maraqlardan, şəxsi meyillərdən uzaq olmaq deməkdir, yəni, əgər eyni bir işə başqa hakim baxdığı zaman o da eyni qərarı verəcəksə, o deməkdir ki, hakim tərəfsiz olub və doğru qərar qəbul edib [20, s. 184].

Ancaq məhkəmə həmçinin müəyyən edib ki, mülki tərəfə qarşı nəzakət və ya rəğbət hislərinin ifadəsi özlüyündə müttəhimə qarşı qərəzliliyin əksi kimi qəbul oluna bilməz, əksinə ədliyyə sisteminin "insan simasını" nümayiş etdirir [23]. Hakimlər öz vəzifələrini yerinə yetirərkən, karyeralarının bəzi mərhələlərində tərəflərdən biri, o cümlədən məhkumla bənzər vəziyyətdə ola bilərlər. Əgər hakimin şəxsi vəziyyəti ilə bağlı xüsusi hallar mövcud deyilsə, məhkəmə bunu hakimlərin qərəzsizliyinə şübhə doğura biləcək bir risk hesab etmir [19, s. 82]. Həmçinin, verdiyi qərarı da əsaslandırmalıdır, yəni nəyə əsasən bu qərarı qəbul edib. Baxacağı mübahisəni son səhifəsindən başlayarsa, bu onu səhv istiqamətləndirə bilər, ona görə də işin bütün hallarından, əvvəlindən xəbərdar olmalıdır [20, s. 182]. Bundan əlavə, stress, həddən artıq özünə arxayınlıq, sosial əhatəsi, yorğunluq, inanclar, şəxsi maraqlar, seçimlər, qərar verərkən tələsmək, ədalətli və vicdanlı olması, xarakteri, dürüstüyü, texniki və professional yetkinliyi, yaşı, təhsili və s. amillər də daxili inama təsir edən ünsürlərdir. Ancaq bunları limitləmək və bu xüsusiyyətlər kifayətdir demək doğru deyil, əlavələr edilə bilər [24, s. 299].

Həmçinin, məhkəmə salonunda gedən proses zamanı yeni yaranmış hallar, sübutlar hesabına və yeni hallardan yaranan səbəblərə görə hakim dərhal həll yolları tapmaq üçün keçmiş təcrübələrindən istifadə edə bilir. Süni intellekt isə belə hallarda yanlış məlumatlar da toplaya bilir və ya olmayan faktları sübut kimi göstərərək ona istinad edir. Çünki o, köhnəlmiş nəticələrə əsaslanan geniş keçmiş verilənlər bazasına sahib olduğundan qüvvədə olmayan, aktuallığını itirən qanunun qəbul edilməsinə səbəb ola bilər [25]. Və ya keçmişdə hansısa hakimin qərəzli və yanlış qərarını tətbiq edə bilər. Süni intellekt dövrün sosial dəyişikliklərini qiymətləndirmək, uyğunlaşmaq qabiliyyətinə sahib deyil. Bundan əlavə, süni intellekt fərdlərin psixikasından xəbərdar deyildir. Ancaq əksər hallarda hakimlər təqsirləndirilən şəxslərin hərəkətlərindən, təlaşından, səsinin tonundan, üz ifadələrindən yola çıxaraq, daxili inamına güvənərək onun təqsirkar olub-olmadığını müəyyənləşdirə bilir. Təbii ki, bu zaman daxili inam işə başlayır. Hakimlər emosional zəkaya sahibdirlər və empatiya qura bilirlər [26].

Beləliklə, bu nəticəyə gəlmək olar ki, hal-hazırda bütün dünyada süni intellektin istifadəsi getdikcə daha da artır. Ən sadə işlərdən mürəkkəbinə qədər hər kəs addım atmadan öncə süni intellektə müraciət edir. Təbii ki, süni intellekt məlumatları təhlil etmək, nümunələri tanımaq, resursları səmərəli şəkildə bölüşdürmək bacarığı ilə səmərəliliyi və dəqiqliyi artıra bilər. Bəzi işlər vardır ki, onlara yanlız insan nəzarəti, müdaxiləsi olmalıdır. İnsanla süni intellekt arasındakı əsas fərq ondadır ki, o, insan hərəkətlərini, səsinin tonunu, özünümüdafiə üçün istifadə etdiyi sözlərin məqsədini aydınlaşdıra bilmir, sübutlara əsaslanır, bu sübutlardan bəziləri də həqiqəti əks etdirməyəndə artıq yanlış qərar qəbul edilmiş olur. Mühakimə etmək, ədalətli qərar vermək, işin hallarını müəyyənləşdirmək, sübutların qiymətləndirilməsi insan zəkası tələb edir. Əlbəttə, süni intellektdən müəyyən işlərdə istifadə edilə bilər: ilkin təhlillərin aparılması, alternativ həll yollarının müəyyənləşdirilməsi, nəticənin proqnozlaşdırılması, vaxta qənaət edilməsi, xərclərin minimuma endirilməsi, müqavilələrin yazılması və s. Ancaq hal-hazırda o, insan mülahizəsini, empatiyasını, düşüncəsini, vicdanını əvəz edə bilməz.

Yeniliklərlə ayaqlaşmaq, o cümlədən, süni intellektin faydalarından istifadə etmək doğrudur və lazımdır. Ancaq bu, insan nəzarəti olmadan edilməməli, yekun qərarı yenə də hakimlər verməlidir. Daha doğru şəkildə istifadə etmək üçün hakimlər təlimlərə cəlb edilə bilər və vahid proqram vasitəsilə fikir ayrılıqlarına da son qoyula bilər. Çünki məhkəmə hakimiyyətində müstəqilliyin təmin edilməsi, bacarıqlı istifadəçi təcrübəsi mütləqdir. O cümlədən, qanunvericiliyə süni intellektlə bağlı bir maddə əlavə edilməyənə qədər hakim əvəzinə süni intellektin qərar qəbul etməsi doğru deyildir. Süni intellekt köməkçi vasitə kimi istifadə olunmalıdır, hakimi əvəz etməməlidir [27, s. 163].

## Biblioqrafiya


1. Sourav R. (2025, 4 mart). Relying on AI in judicial decision-making: Justice or jeopardy? [Elektorn resurs]. URL: https://publicpolicy.ie/papers/relying-on-ai-in-judicial-decision-making-justice-or-jeopardy/

2. Kaur I., & Puri C.G. (2021). Impact of artificial intelligence on legal industry // International Journal of Law, Management & Humanities, 4(2), s. 346–354. https://doi.one/10.1732/IJLMH.26062

3.Azərbaycan Respublikası Konstitusiyası [Elektron resurs]. URL: https://e-qanun.az/framework/897

4.Susskind R.E. (2019). Online courts and the future of justice. [Elektron resurs]. URL: https://doi.org/10.1093/oso/9780198838364.003.0031 s. 85-87

5.Joshua Krook. When Autonomy Breaks: The Hidden Existential Risk of AI [Elektron resurs]. URL: .https://arxiv.org/abs/2503.22151?utm_source=https://doi.org/10.48550/arXiv.2503.22151

6. Krištofík, A. (2025). Bias in AI (Supported) Decision Making: Old Problems, New Technologies. International Journal for Court Administration, 16(1), Article 3. s.7

7. Press trust of India. (2021, April 6). SC launches AI tools SUPACE. Hindustan Times. [Elektron resurs]. URL: https://www.hindustantimes.com/

8. Surden, H. (2019). Artificial Intelligence and Law: An Overview. Georgia State University Law Review, 35(4), s. 19-22

9. Angwin J., Larson J., Mattu S., & Kirchner L. (2016, 23 may). [Elektron resurs]. URL: https://www.propublica.org/article/machine-bias-risk-assessments-in-criminal-sentencing

10. “Elektron məhkəmə” informasiya sistemi haqqında Əsasnamə. Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi: https://e-qanun.az/framework/45080

11.Məhkəmə Xidmətləri və Ağıllı İnfrastruktur Layihəsi (2022). [Elektron resurs]. URL: https://projects.worldbank.org/en/projects-operations/project-detail/P172787

12. Machine Bias. [Elektron resurs]. https://www.propublica.org/article/machine-bias-risk-assessments-in-criminal-sentencing

13. Laux, J., Wachter, S., & Mittelstadt, B. (2024). Three pathways for standardization and ethical transparency under the European Union’s Artificial Intelligence Act. Computer Law & Security Review.53, 105957. [Elektron resurs]. URL: https://doi.org/10.1016/j.clsr.2024.105957

14. Petit, N. (2017).Artificial intelligence and robots in legal regulation: Conceptual framework and normative implications. Electronic Journal. [Elektron resurs]. URL: http://www.ssrn.com/abstract=2931339

15.George G. ZHENG.China's Grand Design of People's Smart Courts. [Elektron resurs]. URL: https://www.cambridge.org/core/journals/asian-journal-of-law-and-society/article/chinas-grand-design-of-peoples-smart-courts/476879522161B47A5BE10DBC4BDE8215?utm_source

16.Council of Europe. (2018). European ethical charter on the use of artificial intelligence in judicial systems and their environment. [Elektron resurs]. URL: https://rm.coe.int/european-ethical-charter-on-the-use-of-artificial-intelligence-in-judici/1680797c47

17. Азимов З. Н. Установление истины по внутреннему убеждению: исторические аспекты. // Право и государство: теория и практика. - 2009. - №4. – С. 112-114.

18.Телятников В. И. Проблемы формирования внутреннего убеждения судьи в уголовном процессе. Дис. канд. юрид. наук. С.-Петербург, 2003, 170 с.

19.Council of Europe. (2025, February 28). Guide on Article 6 of the European Convention on Human Rights: Right to a fair trial (civil limb). European Court of Human Rights [Elektron resurs]. URL: https://rm.coe.int/1680700aaf

20. Dinçkol A. Karar verme süreci içinde hükmün oluşması ve hâkimin fonksiyonu (s. 185). İstanbul Barosu Nəşrləri, 2012.

21. Erem B. Adalet psikolojisi. Ankara: Nobel Nəşrləri, 2015.

22. Birsen, K. Medeni Kanunu lafzile tatbikte hakimin takdir salahiyeti ve hukuki mesuliyyetine dair düşünceler. Ankara: Seçkin Nəşriyyat, 2010.

23. Avropa İnsan Hüquqları Məhkəməsi. (2021). Karrar v. Belçika, §35. [Elektron resurs]. URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-209876%22]}

24. Akcan R. Hakimin vasıfları. Ankara: Yetkin Nəşrləri, 2018.

25. European Commission. (2024). [Elektron resurs]. URL: .https://eur-lex.europa.eu/eli/C/2024/506/oj/eng?utm_source

26. Joshua Greene & Jonathan Cohen (2004), For the law, neuroscience changes nothing and everything, Philosophical Transactions of the Royal Society B: Biological Sciences, 359(1451), 1775-1785. [Elektron resurs]. URL: .https://pmc.ncbi.nlm.nih.gov/articles/ PMC1693457/?utm_source

27. Rustamzade, A., Bagirov, A. R., & Huseynov, S. Z. (2024). Justice and artificial intelligence. // Revista Jurídica Portucalense, (36) [Elektron resurs]. URL: https://doi.org/10.34625/issn.2183-2705(36)2024.ic-7

***Məqalə daxil olmuşdur:*** *10 dekabr 2025-ci il*
***Çapa qəbul edilmişdir:*** *24 dekabr 2025-ci il*

## References

1. Sourav R. (2025, 4 March). Relying on AI in judicial decision-making: Justice or jeopardy? Available at: https://publicpolicy.ie/papers/relying-on-ai-in-judicial-decision-making-justice-or-jeopardy/

2. Kaur I., & Puri C.G. (2021). Impact of artificial intelligence on legal industry // International Journal of Law, Management & Humanities, 4(2), p. 346-354. https://doi.one/10.1732/IJLMH.26062

3.Constitution of the Republic of Azerbaijan. Available at: https://e-qanun.az/framework/897 (in Azerbaijani).

4.Susskind R.E. (2019). Online courts and the future of justice. Available at: https://doi.org/10.1093/oso/9780198838364.003.0031 p. 85-87

5.Joshua Krook. When Autonomy Breaks: The Hidden Existential Risk of AI. Available at: .https://arxiv.org/abs/2503.22151?utm_source=https://doi.org/10.48550/arXiv.2503.22151

6. Krištofík, A. (2025). Bias in AI (Supported) Decision Making: Old Problems, New Technologies. International Journal for Court Administration, 16(1), Article 3. s.7

7. Press trust of India. (2021, April 6). SC launches AI tools SUPACE. Hindustan Times. Available at: https://www.hindustantimes.com/

8. Surden H. (2019). Artificial Intelligence and Law: An Overview. // Georgia State University Law Review, 35(4), s. 19-22

9. Angwin J., Larson J., Mattu S., & Kirchner L. (2016, 23 may). Available at: https://www.propublica.org/article/machine-bias-risk-assessments-in-criminal-sentencing

10. “Regulations on the “Electronic Court” information system. Available at: https://e-qanun.az/framework/45080 (in Azerbaijani).

11. Court Services and Smart Infrastructure Project (2022). Available at: URL: https://projects.worldbank.org/en/projects-operations/project-detail/P172787 (in Azerbaijani).

12. Machine Bias. Available at: https://www.propublica.org/article/machine-bias-risk-assessments-in-criminal-sentencing

13. Laux, J., Wachter, S., & Mittelstadt, B. (2024). Three pathways for standardization and ethical transparency under the European Union’s Artificial Intelligence Act. // Computer Law & Security Review.53, 105957. Available at: https://doi.org/10.1016/j.clsr.2024.105957

14. Petit, N. (2017). Artificial intelligence and robots in legal regulation: Conceptual framework and normative implications. // Electronic Journal. Available at: http://www.ssrn.com/abstract=2931339

15.George G. ZHENG.China’s Grand Design of People’s Smart Courts. Available at: https://www.cambridge.org/core/journals/asian-journal-of-law-and-society/article/chinas-grand-design-of-peoples-smart-courts/476879522161B47A5BE10DBC4BDE8215?utm_source

16.Council of Europe. (2018). European ethical charter on the use of artificial intelligence in judicial systems and their environment. Available at: https://rm.coe.int/european-ethical-charter-on-the-use-of-artificial-intelligence-in-judici/1680797c47

17. Azimov Z.N. “Establishing the Truth Based on Inner Conviction: Historical Aspects.” // Law and State: Theory and Practice. 2009, no. 4, pp. 112–114. (in Russian).

18. Telyatnikov V.I. “Problems of Forming a Judge’s Inner Conviction in Criminal Proceedings.” PhD in Law, 2003, 170 p. (in Russian).

19.Council of Europe. (2025, February 28). Guide on Article 6 of the European Convention on Human Rights: Right to a fair trial (civil limb). European Court of Human Rights Available at: https://rm.coe.int/1680700aaf

20. Dinçkol A. Karar verme süreci içinde hükmün oluşması ve hâkimin fonksiyonu (s. 185). İstanbul Barosu Nəşrləri, 2012. (in Turkish).

21. Erem B. Adalet psikolojisi. Ankara: Nobel Nəşrləri, 2015. (in Turkish).

22. Birsen, K. Medeni Kanunu lafzile tatbikte hakimin takdir salahiyeti ve hukuki mesuliyyetine dair düşünceler. Ankara: Seçkin Nəşriyyat, 2010. (in Turkish).

23. Avropa İnsan Hüquqları Məhkəməsi. (2021). Karrar v. Belçika, §35. Available at: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-209876%22]}

24. Akcan R. Hakimin vasıfları. Ankara: Yetkin Nəşrləri, 2018. (in Turkish).

25. European Commission. (2024). Available at: .https://eur-lex.europa. eu/eli/ C/2024/ 506/oj/eng?utm_source

26. Joshua Greene & Jonathan Cohen (2004), For the law, neuroscience changes nothing and everything, Philosophical Transactions of the Royal Society B: Biological Sciences, 359(1451), 1775-1785. Available at: .https://pmc.ncbi.nlm.nih.gov/articles/ PMC1693457/?utm_source

27. Rustamzade, A., Bagirov, A. R., & Huseynov, S. Z. (2024). Justice and artificial intelligence. // Revista Jurídica Portucalense, (36) Available at: https://doi.org/10.34625/issn.2183-2705(36)2024.ic-7

***The article was submitted:*** *2025 December 10*
***Accepted for publication:*** *2025 December 24*

**Каримов Ш.М., Агаева Э.И.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2025.81.73-82**
**УДК: 343.1**

## Баланс между искусственным интеллектом и внутренним убеждением судьи в судебном рассуждении

**Аннотация:** В период, когда искусственный интеллект быстро интегрируется в нашу жизнь, один из главных вопросов, который остается открытым для сотрудников судебной системы, заключается в следующем: сможет ли в будущем искусственный интеллект заменить судей? В рамках исследования сравниваются процессы принятия решений искусственным интеллектом и судьями с точки зрения верховенства закона, процессуальной справедливости и легитимности решений, с указанием сильных и слабых сторон каждого из них. Далее анализируются правовые и практические последствия принятия решения искусственным интеллектом по сравнению с решением, основанным на внутреннем убеждении судьи. Кроме того, в исследовании рассматривается степень использования искусственного интеллекта в судебной практике некоторых стран и приводятся соответствующие примеры. В заключение подчеркивается, что сотрудничество между судебной системой и искусственным интеллектом имеет большое значение как с точки зрения экономии времени, так и в качестве дополнительной модели для принятия более точных и справедливых решений.

**Ключевые слова**: искусственный интеллект, судья, внутреннее убеждение, «робот-судья», принятие решений, суд, технология, справедливость

***Дата поступления:*** *10 декабря 2025 г.*
***Дата принятия в печать:*** *24 декабря 2025 г.*

♦ **Каримов Шохлат Музаффар оглы** - кандидат юридических наук, доцент кафедры права Национальной академии авиации (Азербайджан). E-mail: shohlet.kerimov@gmail.com
**Агаева Эсмер Ингылаб кызы** - магистрант кафедры права Национальной академии авиации (Азербайджан). E-mail: ebaxishli@gmail.com